# SÖZDƏ CƏSARƏTİN KƏSƏRİ,

## *yaxud Rafiq Musanın "Təmsillər" kitabı haqqında*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

"Kredo" qəzeti ilə əməkdaşlıq XX əsrin görkəmli sənətkarlarının haqqında xatirələrimi, xalqımızın mənəvi inkişafında xüsusi təsir gücü olan dəyərli yaradıcılıqları ilə bağlı düşüncələrimi yazmağa şərait yaratdı. Mənim üçün ən fərəhlisi bir də odur ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrinin yaradıcılıqları ilə də yaxından tanış olur, kitablarından aldığım təəssüratlarımı da yazdım və elə bizim "Kredo"muzla oxucularıma ünvanladım.

Bəzən görürsən ki, çox istedadlı bir sənətkar bütöv bir ömür yaşayır, həyatını da sözə, sənətə həsr edir. Təəssüf ki, öz sağlığında nə çəkdiyi zəhmətin dəyərini ala bilir, nə də oxucular arasında qədərincə haqqına görə tanına bilmir. Əlbəttə, burada həmin sənətkarın təbiətindən gələn şəxsi keyfiyyətlərinin də təsiri az deyil. Sadəcə öz istedadlarına güvənib yazmaqla məşğul olur, yaradıcılıqlarından qalmırlar. Daha öz yaradıcılıqlarının təbliği belə müəlliflər üçün o qədər əhəmiyyət kəsb etmir. Nəticədə təəssüf doğuran vəziyyət yaranır.

Mən şair R.Musanı "Kredo" qəzetindən tanımışam. Mənim dostum Ə.R.Xələflinin həyat və yaradıcılıq taleyini əks etdirən poemasının birinci hissəsini də "Kredo" qəzetindən oxumuşam. Onun digər əsərləri, kitabları haqqında da artıq bəzi qeydlərimi yazmışam. İndi məndə maraq doğuran R.Musanın "Təmsillər" kitabı oldu. Bu kitabın ön sözünü pedaqogika elmləri doktoru, professor Həsən Bayram oğlu yazıb. O, ön sözündə Azərbaycanda satiranın, təmsil yaradıcılığının inkişaf tarixinə də nəzər salıb. "Molla Nəsrəddin", "Lək-lək" və digər satirik mətbuat orqanlarını yada salır, R.Musanın yaradıcılığında Azərbaycan satirasının ən yaxşı ənənələrinin davamını gördüyünü qeyd edir.

Nəhayət, o, R.Musanın təmsillərinə münasibət bildirərək yazır: "R.Musanın *"Təmsillər"i bu günün ictimai-siyasi hadisələrini özündə əks etdirən ən gözəl və dəyərli poeziya nümunələridir. Şair bütün hadisələrin gedişatını ya qabaqlayır, ya da vaxtında poetik bir dildə açıb göstərir. Çox güclü həyat müşahidələrinə malik olan şair hər bir fikri "yüz ölçür, bir biçir", fikirlərini oxucuya çatdırmaq istəyir və buna nail olur. R.Musa yaradıcılığında "Qarabağ məsələsi" həmişə aktual olmuş və olmaqdadır. Təmsillərində də bu mövzuya dəfələrlə toxunmuş və hadisələrə aydıqlıq gətirmiş, Qarabağın Azərbaycan torpağı olduğunu önə çəkmişdir. Bu gün Azərbaycanın bir parçası olan Qarabağdakı daşnaq tör-töküntüləri bilməlidir ki, onların sonu çatıb. Bilməlidirlər ki, bu torpaqların yiyəsi evindədir.*

*Tülkülər dolaşdırır,*
*Qarabağda izini.*
*Yaxasından tutaraq,*
*Qurd deyəcək sözünü.*
*("Qurd deyəcək sözünü")*

*Bəli, o gün bu gündür. Dözdük, yetər! R.Musanın alleqorik şeirlərinin əksəriyyətində biz bunu görə bilərik: Ədəbiyyatda komik ədəbi nümunələr ciddi lirik ədəbi nümunələr qədər sosial çağırışların tribunasını təşkil etdiyindən həm ciddi, həm də komik üslubu öz yaradıcılığında birləşdirmək bizim ədəbi mühitdə yanyana addımlamışdır. Bu, Rafiq Musada da belədir. Rafiq Musada da belədir"*. Professor çox dəyərli müşahidələrilə R.Musanın təmsillərini təhlilə çəkir. Və təhlillər zamanı mətndən aldığı təəssüratları R.Musanın yaradıcılıq örnəkləri ilə daha da qüvvətləndirir. Sanki oxucuya diktə edir ki, cəmiyyətin həyatını bəzən təmsillərin məzmununda ifadə olunan mənalarla da qavramaq olar.

Mən bu fikirlə razıyam. Çünki insanlar özlərinə aid olan keyfiyyətləri obrazlaşmış qeyri-insani varlıqların təbiətində görəndə həyatı necə yaşamaq haqqında daha dəqiq düşünə bilirlər. Yəni insanda özünə tənqid münasibəti yaranır. Elə professorun özünün də misal gətirdiyi "Meşə o meşə deyil" alleqorik poemasından bir parçaya diqqət edək:

Meşə, kimsəsiz meşə,
Qurd gəlir, tülkü gəlir.
Şimaldan soyuq külək,
Cənubdan bürkü gəlir.
Qış yuxusu düşməyir,
Ayının heç yadına.
Sovqat-movqat da gəlmir
Bu yazığın adına.
Eşşək çəkə bilməyir,
Meşənin qəm yükünü.
At da ona qoşulub
Ağır keçir hər günü.

Ağır keçir hər günü. səh.6 İndi gəlin düşünək. Meşə obrazı ilə müəllifin nələri demək imkanlarına baxaq. Bəlkə də müəllif üçün meşə haqqında danışdığı qədər birbaşa cəmiyyət haqqında danışmaq çətin olardı.

Açığı, R.Musa elə sərrast, elə dəqiq obrazlar seçir ki, Belinski sayağı desək, onun fikirləri ildırım kimi çaxır. Sanki şimkək kimi doğrayıb keçir. Elə professorun özünün də misal gətirdiyi bir bənd mənim də diqqətimi çəkdi:

Eşşək qoduğa baxdı:
Dağılacaq bizim ocaq!
Yerli-yersiz anqırır
Bundan eşşək olmayacaq.

R.Musanın satirası ilə təmsilləri bir-birini tamamlayır. Satirik uslub onun təmsillərinin satirik gücünü daha da artırır.

R.Musa dördcə sətrin içərisində cəmiyyətin mənəvi problemlərini çox ustalıqla obrazlaşdırır. "Uzunqulaq yaxınlaşıb, Dilə tutdu kəhəri: - Palan hörmətdən salır, Versən mənə yəhəri". Belə yerdə deyirlər ki, bu ağılsızlığı heç kim eləməz. Sadəcə, sanki eşşək Kəhərin ağlını yoxlayır. İndi gəlin görək, əgər Kəhərin adına uyğun ağlı varsa, o, öz yəhərini palanla necə dəyişər? Əlbəttə, cəmiyyətdə dilə tutmalarla, şirnikləşdirmələrlə aldatmaların sayı-hesabı yoxdur.

Təbiətdə sarmaşığın necə bitki olduğunu hamımız yaxşı bilirik. Onu da bilirik ki, sarmaşıq təbiətin tüfeylisidir. O, hər hansı bir ağacın gövdəsinə dolanır, ondan istifadə ilə boy atır. Hətta sarmaşığın elə növləri var ki, gövdəsinə dolandığı ağacın şirəsi ilə böyüyür. Rafiq bu məqamı görün necə poetik biçimə salmışdır: "Sarılaraq palıdın Gövdəsinə sarmaşıq, Ərz elədi palıdla Biz doğmayıq, qardaşıq". Demək, əsl həqiqət şərhsiz, filansız sarmaşığın öz həyatının mahiyyətini necə hiyləgərliklə örtbasdır etməsində görünür.

Rafiqin təmsilləri həm həcm etibarı ilə fərqlidir, onun qeyd etdiyimiz kimi iri təmsil poemaları da var. Amma əsasən kiçik dördlüklərlə o, daha çox özünü ifadə etmək imkanı ilə oxucu diqqətini çəkir. Onun təmsillərində saysız-hesabsız bitki, heyvan, hətta daş, kəsək obrazları var. Yırtıcılar necə, hansı həyatı yaşayırsa. ona cəmiyyətə müvafiq məzmun verir və poetik variantları yaradır.

Qarğa uzaqgörənliyini o, belə təqdim edir:

Zəng edib ala Qarğa,
Söylədi: - Müxbir qağa
Mənim fikirlərimi
Götür qəzetində yaz:
Adamdan meymun olar,
Meymundan adam olmaz?

Rafiqin təmsillərində vəzifənin özü də obraza çevrilir. Vəzifə qarıldamaqdan başqa sənəti olmayan Qarğanı necə hörmətə mindirir, yaxud sərçə necə vətənpərvər ola bilir? Ümumiyyətlə, qohumbazlıq nədir, yaxud canı yananlığın necə pərdəli tərəfləri var? Bütün bu məsələlər R.Musanın təmsillərində çox sərrastlıqla ümumiləşdirilir və dəyərli, lakonik, yığcam sənət örnəklərinə çevrilir.

Həqiqətən "Göbələyi dərd alıb, Çətinə düşübdür iş. Palıd yaman əyilib, Palıd da çürüyərmiş". Bunu göbələk deyir, düşünür. Yəni palıd canı yanır, palıdın qayğısına qalır. Amma həqiqətən göbələyin palıda canı yanırmı? Əgər canı yanırsa, onda niyə palıdın canına daraşıb onu çürüməyə vadar edir?

Qorxunun mahiyyətinə Rafiqin özünəməxsus baxışı var. Məşhur filmdə də deyildiyi kimi, itlər çox vaxt elə qorxudan hürür. Amma guya qordudan yox, cəsarətindən, gücünə güvənərək hürür. Bütün bunların hamısında cəmiyyətin bəzən görünə bilməyən tərəflərinə sərrastlıqla işıq salır.

Rafiqin təmsillərində baş yerlərdən birini də ev quşları tutur. Toyuğun, xoruzun, cücənin obrazları ilə müəllif insanlara çox aydın, tutarlı dərslər keçir. Onun "Beçə xəyalı" adlı gözəl bir təmsili var:

Beçə haray çəkib hində öyündü,
Elə bil dünənki beçə deyildi.
Dedi: - Banlayıram, bir baxın necə,
Banlaya bilərmi dünənki Cücə?
Bu gündən dediyim tapşırığı siz,
Bir sözlə, yerinə yetirməlisiz.
Beçənin fikrini Xoruz anladı,
Gərib qanadını bərkdən banladı
Xoruzun səsini eşidən Beçə
Bilmədi hinliyə ha yandan keçə.
Bir də haray çəkib özün öymədi,
"Mənəm-mənəm" deyə sinə döymədi".

Hə, necədir, əziz oxucum. Təmsildə sanki bir ailənin, bir insan toplumunun təbiəti görünür. Necə deyərlər, hər kəs öz payını götürsün.

Rafiqin "Lovğa sulfat" adlı bir təmsili də var. Sulfat turşusunu biz kimya fənnindən az-çox öyrənmişik. Onun xüsusiyyətləri haqqında da demək olar ki, orta səviyyəli hər kəsin məlumatı var. Amma Rafiq üçün sulfatın xüsusiyyəti ona öz əsərini yaratmaq üçün əsas verir. Beləcə, Rafiq Musanın təmsillərində gözlə görünən hər nə varsa, düşüncə obrazına çevrilir. Yerə düşən, xəzəl olmuş yarpaqdan tutmuş, acı, şirin meyvələrə qədər. Yolların özü də, cığırlar da, izlər də Rafiq üçün mövzudur, fikrini yazmaq üçün tutarlı mənbələrdir.

Açığı R.Musanın təmsilləri sırasında partiyalara da həsr olunmuş dəyərli ədəbi örnəklər var. Mən bu barədə geniş söhbət açmadan bircə onu deyirəm ki, müəllif müxtəlif partiyalarda birləşən adamların yalnız öz mənafeləri naminə mübarizələrinə alleqorik don geydirir. Bir sözlə, kimin kim olduğunu R.Musa təmsilləri ilə dəqiq və aydın göstərə bilir.

Dostum Ə.R.Xələfli qeyd edir ki, təmsil janrında R.Musanın uğurunun əsas səbəbi onun təbiətində yumor hissinin güclü olmasından irəli gəlir. O, cəmiyyətlə gülə-gülə, sanki zarafatla danışır. Bununla da tənqidi münasibət bildirdiyi, cəmiyyət üçün yararsız hesab etdiyi hər nə varsa, elə təmsilləri vasitəsilə islah etməyə çalışır.

Mən "Təmsillər" kitabını vərəqlədikcə dostumun tam qənaəti ilə razılaşmışdım. Bəzən satira yazanlara, təmsil yazanlara cəmiyyət təzadlı münasibət bəsləyir. Bir çox hallarda təmsilçiləri, satirikləri özlərinə yad bilirlər. Amma mən düşünürəm ki, təmsilçilər, bəlkə də, qeyrilərindən daha çox insana, insanlığa bağlıdırlar. Onlar elə insanları sevdikləri üçün bu janrdan islah vasitəsi kimi istifadə edirlər.

R.Musa klassik təmsil ustadlarından biri kimi təqdir olunmalı və tədqiq edilməlidir.

***2025***